# 20-30-CU İLLƏR SOVET TOTALİTARİZMİ VƏ ONUN NƏTİCƏLƏRİ HAQQINDA

*Hamlet İSAXANLI**

***(Azərbaycan)***



19-20-ci əsr sosialist hərəkatları zorakı-lıq və terror ideologiyasını, "ali məqsədi" qanundan üstün tutmağı bir qaydaya, adət-ən'ənəyə çevirdi. Sosializm ideyaları iqti-sadi və siyasi inkişaf cəhətdən Avropadan xeyli geri qalan, siyasi burulğan içində olan Rusiya imperiyasında geniş yayılmış, cə-miyyəti güc işlədərək dəyişmək istəyənlə-rin dayağı olmuşdu. Rusiyada dalbadal baş verən üç inqilab zorakılığı və gücü, çılğın-lığı və fərqli fıkrə hücumu gündəlik həyatın səciyyəvi cəhətinə çevirmişdi. İstila, çev-riliş, yalan və'dlər əsasında qurulmuş Sovet İttifaqında totalitarizmin dövlət xəttinə çevriləcəyi ehtimalı çox böyük idi. Bu dövləti yaradanların fanatiklər, idealistlər, qeyri-adi iddia sa-hibləri olduğunu və öz arxalarınca milyonlarla ac-yalavac, vəzifə hə-risi və həmçinin idealist xəyalpərvərləri apardığını xüsusi qeyd etmək lazımdır. Totalitarizm toxumunun Rusiya adlanan çox münbit torpaqda cücərəcəyi, qol-budaq açıb hər yerə kölgə salacağı çox təbii deyildi-mi? Rus ruhunun totalitarizmə yol açdığı fıkri mübahisəli olsa da, N.A.Berdyayevin bu barədə mülahizələri maıaqlıdır: "Rus xalqı -dövlət xalqıdır, o böyük dünya dövləti yaratmaq üçün material olmağa mütiliklə razıdır, o, həmçinin qiyam, sərbəstlik və hərc-mərcliyə meyllidir".

Təkpartiyalılıq demokratik dövlət qurma yolunu inkar etdisə, daha sonra hücum obyektinə çevrilən partiyadaxili fraksiyaların məhv edil-məsi totalitarizmin siyasi təməlinə çevrildi. Siyasi sistem demokratik mərkəziyyətdən avtoritar-despotik istiqamətə dəyişdi. 1930-cu ilin yayında Kommunist Partiyasının XVI qurultayı aşağıdan tənqidin bit-məsi və cəmiyyətdə açıq siyasi müzakirələrin sona yetməsini göstər- j di.

Yeni iqtisadi siyasətin üzvi davamına əsaslanan vo iqtisadiyyatınj müntəzəm, mütənasib, hərtərəfli inkişafını önə çəkən sosializm quru-j culuğundan yan keçildi. Buxarin və Rıkov kimi liderlərin sə'ylərinə baxmayaraq Stalinin sür'ətlə və güc tətbiq etməklə sənayeləşmə, iq-tisadiyyatın digər sahələrinin isə tabe xarakter daşıması planı həyata keçirildi. Kənddə könüllü kooperasiya, ağır və yüngül sənayenin əla-qəli inkişafı, həyat səviyyəsinin addım-addım yüksəldilməsi yolu se-| çilmədi. Nəyin bahasına olursa-olsun qısa zamanda ağır sənayeninj yaradılması qarşıya əsas məqsəd qoyuldu. Kollektivləşmə-kolxoz qur-J ma vasitəsilə kəndi idarəetməni mərkəzləşdirmək, sənaye yaradan şə-j həri buğda və ərzaqla tə'min etmək zəruri hesab edildi. Geniş repres-i siya şəhərdə deyil, kənddə başlandı. İdarəetmədə iqtisadi mexanizm-lər deyil, komanda-inzibati üsul əsas götürüldü.

Cəmiyyətin qeyriтmüntəzəm inkişaf planı həyata keçirildi və çox | müxtəlif, qeyri-müntəzəm nəticələr alındı. Ümumiyyətlə, totalitar re-jim bir sıra sahələrdə nisbətən qısa zamanda xeyli uğur qazana bilər. Bu heç də qəribə deyil. Cəmiyyətin resursları tam hərəkətə gətirilir, qarşıya qoyulan məqsədə nail olmaq üçün bütün qüvvələr işə salınır.

Sür'ətlə sənayeləşmə vasitəsilə sosializm qurmaq istəyən ideoloq-ların məqsədi yeni tipli dövlət (indi deyə bilərik ki, totalitar dövlət) j yaratmaq idi. Yə'ni məqsəd yaradıcılıq idi, quruculuq idi. Lakin bu birtərəfli quruculuq özündə ilkin şərt olaraq güclü dağıdıcılıq ünsür-ləri saxlayırdı. Kollektivləşmə dövründə şəhərdə əsasən quruculuq, kənddə isə daha uyğun, daha məhsuldar, daha dayanıqlı özəl təsərrü-; fatın, özəl mülkiyyətin məhvinə yönələn əsasən dağıdıcılıq işi aparı-lırdı. Cəmiyyət müvazinƏtini itirməkdə idi.

30-cu illərdə sənayeləşmə baş tutdu. İşsizlik ləğv edildi. Savadsız-lıq aradan qaldırıldı. Elm, təhsil, səhiyyə və mədəniyyət sahələrindəj uğurlar qazanıldı. Miili münasibətlərdə ziddiyyətlər aradan götürüldü, cəmiyyətdə barışıq, həmrə'ylik ruhu böyüdü, kütlə entuziazmı feno-i meni baş verdi. Digor tərəfdən isə, kənddə kollektivləşmə aparmaq üçün geniş repressiyalar başlanıldı, ən qabiliyyətli işçi qüvvəsi məhv edildi, iş bacarığı zəif olan,

Prof. Dr.. Founder and Chancellor of Khazar University

insani keyfıyyətləri yuxarı olmayanların xeyli hissəsi iş başına keçirildi. Bolluq əvəzinə qıtlıq, aclıq baş verdi, milyonlarla insanlar məhv oldular. Milli yaddaşa və dini dəyərlərə

qəsd edildi. Avtoritarizmin qatı formalan həyata qədəm basdı, bü-rokratiya hədsiz dərəcədə gücləndi. Şəxsi hakimiyyət hüdudsuz şəkil aldı, qanun siyasətə, ideologiyaya tabe edildi. Qorxu, təhlükə, şübhə, böhtan, xəbərçilik insanları smdırır, mə'nəvi cəhətdən şikəst edirdi.

Düşüncə üzərində zorakılıq, siyasi əxlaqsızlıq cəmiyyətdə kök atdı. Şüurda haçalanma və nəticə e'tibarilə cəmiyyətin mə'nəvi dayaqları-nın bərk laxlaması uğur qazanılmış sahələrə və sonrakı dövrə böyük mənfı tə'sirini göstərməli idi. Bu, totalitar rejimi səciyyələndirən cə-hətlərdəndir.

Təbii diferensiallaşmanın ədalət prinsipinə zidd olduğu sovet şüu-runda yuva saldı, sonralar da beyindən çıxmayan bolşevizm ruhu qa-nad açdı.

Qeyri-insani gücə malik rəhbər, bütləşmiş rəhbər, hər şeyi hamıdan yaxşı bilən rəhbər cəmiyyətin yarımallahına çevrildi.

Qeyri-müntəzəm və zor gücünə inkişafın nəticəsi olaraq sovet cə-miyyəti bir sıra sahələrdə irəli gedir, digərlərində isə geri qalırdı. 50-70-ci illərdə elmi-texniki tərəqqi baş verdi, qabaqcıl ölkələrlə müqa-yisə olunan iri addımlar atıldı, nüvə silahı, raket texnikası kimi sahə-lərdə liderlik durumuna gəlindi. Amma təsərrüfat həyatında geriqalma aradan qalxmadı. Tələblə təklif arasında uçurum, kəmiyyət naminə keyfıyyət itkisi, ərzaq qıtlığı, mənzil problemi kütlə entuziazmını yox etdi. 50-70-ci illərdə həyat səviyyəsi əslində yalnız 20-40-cı illərə nisbətdə yaxşılaşmışdı, inkişaf etmiş ölkələrlə müqayisədə isə xeyli aşağı idi.

Cəmiyyətdə natamamlıq, sistemsizlik əmələ gəlmişdi. Ölkə yeni, keyfiyyətcə yüksək iqtisadi inkişafa, köklü dəyişmələrə qadir deyildi. Nisbi uğur qazanılmış sahələrdə də (səhiyyə, təhsil,...) geriləmə baş-ladı. "Elliklə", "bütün cəbhə boyu" hücumda olan, qeyri-müntəzəm inkişaf yolu seçən, azad düşüncə və mə'nəvi dəyərlərə buxov vuran sovet totalitarizmi yaratdığı sistemi idarə etməyə qadir olmadı. Kütləvi repressiya aradan qaldırıldıqda, totalitar rejim zəifləyəndə iki-üzlülük, tə'rifşünaslıq xəstəliyinə düçar olmuş sovet cəmiyyətinin və-ziyyəti daha da ağırlaşdı, korrupsiya, mafiya, tayfabazlıq, yerlibazlıq xəstəlikləri onun beynini və bədənini bürüdü.

Gəldiyimiz əsas nəticə - 20-30-cu illərdə həyata gələn Sovet to-talitarizminin dövlətin nisbi inkişafını tə'min etdiyini, taktiki cəhətdən uğurlu addımlar atdığını, lakin strateji baxımdan ölkəni məhvə gətirdiyini göstərmək idi.

"Sovetlərin 70 ili bizə nə verdi" və ya "70 illik birtərəfli, zor işlət-məklə, qeyri müntəzəm inkişaf nə verdi" sualına cavab olaraq tək şüurumuzun totalitarizm ilə zəhərləndiyini, adi vətəndaşların xalq adından damşaraq fərqli düşünənləri damğalamasını göstərmək heç də az deyil. Lakin ölkələrin ümumiyyətlə hərtərəfli inkişaf səviyyəsini göstərən ***insan inkişafı indeksi*** üzərində dayanmaq daha dəqiq olardı. Olkədə insanların uzunömürlülüyünü, savadlılıq dərəcəsini, işlə tə'min olunmasını, adambaşına düşən milli gəliri özündə əks etdirən insan inkişafı indeksi bu gün Birləşmiş Millətlər Təşkilatı tərəfındən ölkələrin "insani səviyyəsinin", mədəni, iqtisadi, ictimai inkişafın ger-çək bir göstəricisi kimi qəbul edilmişdir.

I994-ci ilin mə'lumatına görə Rusiya Federasiyası İnsan İnkişafı İndeksinə görə 72-ci, Ermənistan 99-cu, Gürcüstan 108-ci, Azərbay-can 110-cu, Tacikistan 118-ci yerdədir. Əgər Sovet İttifaqında müntə-zəm, müxtəlif sahələrin mütənasib inkişaf yolu seçilsəydi necə olardı? Əgər Azərbaycan kimi dövlət müstəqil dövlət statusunu saxlasaydı hansı inkişaf səviyyəsində olardı? Bu suallara dəqiq cavab verməyin mümkün olmadığı da aydındır. Bir cəhətə diqqət yetirə bilərik. Sovet İttifaqmın qurulması ərəfəsində Azərbaycandan çox irəlidə olmayan, bir qismi də geridə olan, lakin müstəqil dövlət yolu keçən ölkələrə nəzəf salaq. Bəhreyn insan inkişafı indeksinə görə 43-cü, Birləşmiş Ərəb Əmirlikləri 48-ci, Küveyt 54-cü, Liviya 64-cü, Türkiyə 69-cu, İran 78-ci yerdədir. İnsan inkişafı indeksini

mütləqləşdirməsək də, təməldə duran statistikaya şübhə ilə yanaşsaq da, bu göstəricilər müəyyən düşüncələrə dalmağa məcbur etmirmi?

***Summary***

## ON THE SOVIET TOTALITARIANISM IN 1920-30s AND ITS EFFECT

***Hamlet ISAXANLI***

***(Azerbaijan)***

The ideology of violence and terror in the struggle for "supreme ideas" was put beyond the law by the socialist movements of XLX-XX c. Three re-volutions in Russia following each other made struggle with dissent a norm of everyday life. Single-party system taken as a base of the society rejected the democratic way of development. The policy of expansion, coup d'etats, deception and espionage made totalitarianism the main policy of the Soviet State.

To create a heavy industry in the least possible term and centralize villa-ge administration by means of collectivization the command-administrative way was selected.

Considering different periods of existence of intemal policy and its influence on the Social life of the country one can ask: "What was the result of seventy years' unstable one-side non-uniform development achieved by violence?" To answer this question the data about level of human development accepted by the UN as a real indicator for "human factor", level of culture, economy and social development of different countries is quoted in this article.